Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2024, **s. 64-69**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2024, **с. 64-69**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2024, **p. 64-69**

UOT 159.922

A.Y.Mahmudova
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: aynurmahmudova@gmail.com

YENİYETMƏLİK DÖVRÜNDƏ İNKİŞAFIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *yeniyetmə, yaşlılarla münasibət, özünüqiymətləndirmə, müstəqillik, özünüdərk, əxlaqi davranış*

Yeniyetməlik dövrünün başlıca inkişaf xüsusiyyəti şəxsiyyətin formalaşmasından ibarətdir. Yeniyetməlik dövrünü çox vaxt "keçid dövrü", "çətin dövr", habelə "böhran dövrü" də adlandırırlar. Əgər dördüncü sinfin şagirdi ilə səkkizinci sinfin şagirdin müqayisə etsək, görərik ki, bu qısa zaman ərzində uşaqlar fiziki, əqli, əxlaqi, həmçinin ictimai-sosial nöqteyi-nəzərdən kifayət qədər dəyişmiş olurlar. Əgər orta uşaqlıq dövrü uşaqlar öz şəxsiyyətlərini formalaşması üçün ətraflarındakı şəxslərdən qeyd-şərtsiz nümunə götürürlərsə, yeniyetməlik dövrü həmin örnəkləri öz düşüncə və dəyərləri ilə əlaqələndirməyə çalışırlar. Eyni zamanda şəxsiyyətin inkişafı və formalaşması zamanı yeniyetmənin keçirdiyi çaşqınlıq hissi həmin dövr üçün normal əlamət hesab olunur.

Yeniyetməlik dövründə yeniyetmələr öz şəxsiyyət struklaına görə bir çox problemlərlə qarşılaşırlar. Yeniyetmənin ətrafı və özü ilə daxili qarşıdurma yaranır. Yeniyetməlik dövründə digər inkişaf dövrlərində meydana çıxan problemlərin bəziləri daha çox mürəkkəbləşir. Təzahür edən problemlər xəstəliklər, genetik və ekoloji faktorlar kimi vəziyyətlərdən meydana gəlir.

А.Я.Махмудова

ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

Ключевые слова: *отношения с подростками, старшими, самооценка, независимость, самосознание, нравственное поведение*

Основной особенностью развития подросткового возраста является формирование личности.Подростковый возраст часто называют «переходным периодом», «трудным периодом», а также «кризисным периодом». Если сравнить ученика четвертого класса с учеником восьмого

класса, то мы увидим, что за это короткое время дети очень изменились с физической, психической, моральной, а также социально-социальной точки зрения. Если дети среднего возраста для формирования своей личности безоговорочно берут примеры с окружающих людей, то в подростковом возрасте они стараются связать эти примеры со своими собственными мыслями и ценностями. При этом нормальным для этого периода признаком считается чувство растерянности, испытываемое подростком в процессе развития и становления личности.

В подростковом возрасте подростки сталкиваются со многими проблемами, связанными со структурой их личности. У подростка возникает внутренний конфликт с окружением и самим собой. В подростковом возрасте некоторые проблемы, возникающие в другие периоды развития, усложняются. Проявления проблем вызваны такими состояниями, как заболевания, генетика и факторы окружающей среды.

A.Y.Mahmudova

PSYCHOLOGICAL FEATURES OF DEVELOPMENT IN ADOLESCENCE

Key words: *relationship with teenagers, elders, self-esteem, independence, self-awareness, moral behavior*

The main developmental feature of adolescence is the formation of personality. Adolescence is often called "transitional period", "difficult period", as well as "crisis period". If we compare the student of the fourth grade with the student of the eighth grade, we will see that during this short time, the children have changed a lot from the physical, mental, moral, as well as social-social point of view. If middle childhood children unconditionally take examples from the people around them to form their personality, then in adolescence they try to connect those examples with their own thoughts and values. At the same time, the feeling of confusion experienced by a teenager during the development and formation of personality is considered a normal sign for that period.

During adolescence, teenagers face many problems due to their personality structure. A teenager has an internal conflict with his surroundings and himself. During adolescence, some of the problems that arise during other developmental periods become more complex. Manifesting problems are caused by conditions such as diseases, genetics and environmental factors.

Yeniyetmə öz şəxsiyyətini formalaşdıranadək bir neçə obrazı sınaqdan keçirir. Bu yaş dövründə öz şəxsiyyətini formalaşdıra bilməyən yeniyetmələrdə çaşqınlıq yaranır, onlarda özünüdərk və özünüqiymətləndirmə düzgün inkişaf

etmir. Bu halda onlarda gələcək həyatları barədə heç bir fikir əmələ gəlmir, həyatı haqda proqnoz formalaşmır. Başqalarına qarşı aqressivlik, dözümsüzlük, səbirsizlik və çılğınlıq yeniyetmələrin özünümüdafiə mexanizminə çevrilir.

A.N.Leontyev "uşaqların psixi inkişaflarının hərəkətverici qüvvəsi onların ictimai münasibətlər sistemi üzrə tutduğu həqiqi yerin dəyişməsidir" müddəası psixoloji mənada böyük önəm kəsb edir. Çünki bu dövrdə uşağın yaşayış tərzi ilə, artıq onun bu yaşayış tərzini qabaqlamış perspektivləri arasında açıq ziddiyyət ortaya çıxmağa başlayır. Buna uyğun olaraq, onun fəaliyyəti isə yenidən qurulur. İlkin olaraq bu şərait yeniyetmədə yaşlılarla münasibət zamanı yeni mövqe tutma, hərəkətlərində sərbəstlik, öz yaşıdı ilə ünsiyyətdə bir sıra yeniliklər yaratmaq meylinin əmələ gəlməsinə səbəb olur.

İkincisi, yeniyetmə tələbləri onun yaşayış təcrübəsi və ixtiyarındakı müstəqillik imkanına nəzərən xeyli irəliyə qaçır, yeniyetmə yaşayış tərzini heç də imkanları üzrə uyğun deyil, onlardan bir qədər geniş formada qurmağa can atır.

Üçüncüsü, yeniyetməlik dövründə təlimin bu və ya başqa növünə yiyələnmək məqsədilə zəruri sayılan senzitivilik, həssaslıq, həmçinin yüksək qavrama qabiliyyəti adlı keyfiyyətlərlə diqqəti cəlb edir [6, s.3-7].

Müasir dövrdə yeniyetməlik dövrünün əsas xüsusiyyətləri uşağın öz "mən"ini dərk etməsi, başqalarını qəbul etməməsi və öz fikirlərinin daha düzgün hesab etməsidir. Dünənədək uşaq saydığı, asanlıqla öz fikirlərini yeritdiyi və yönləndirə bildiyi övladı ilə ünsiyyət qurmaq valideyn üçün müşkülə çevrilir. O həmişəki tələbkarlığının əvəzində yeniyetmədən etiraz görür. Bu dövrdə valideynləri və müəllimlərlə daha çox konflikt yaşayan yeniyetmə üçün ən qəbuledilməz şey tənqid edilməsidir. Bəzən yetkin insanlar düşünürlər ki, tənqiddə bir fayda vardır. Halbuki valideynin həmin yaş dövründə olan övladını tənqid etməsi onları hər gün bir az da ondan uzaqlaşdıraraq yadlaşdırır.

Yeniyetmə bu zaman daha təhlükəli olur. Ailəsindən qopan yeniyetmə kənar destruktiv qruplara meyil göstərir ki, bu da onların neqativ vərdişlərə yiyələnməsi ilə nəticələnir. Bu yaş dövründə yeniyetmələrdə uşaqlıq asılılığından çıxmaq və valideynlərlə qarşılıqlı inam, hörmət, etibar və s. kimi münasibətlərə keçməyə tələbat yaradılmalıdır. Valideynlər uşağın öz dünyasını kəşf edə bilməsi üçün ona imkan verilməli, onlarda özlərinə qarşı inam hissi yaradılmalıdır. Çünki yeniyetməlik dövrünün əsas xüsusiyyətləri ondan ibarətdir ki, "o özünü dünənə qədərki uşaqların arasında görmür, valideynləri isə onları böyüklərin sırasına buraxmır". Bəzi yeniyetmələr öz valideynlərinə xas dəyərləri və artıq sınaqdan keçirilmiş təcrübələrinə istinad edərək davranışlarını erkən formalaşdıra bilirlər. Digər yeniyetmələr isə öz valideynlərinin, yaxud yaşadıqları cəmiyyətin dəyərlərini qəbul etmək istəmir, onlarla eyni dəyərə malik olan həmyaşıdlarının dəyərlərinə üstünlük verməkdə davam edirlər [1, s. 40-43].

Yeniyetmələrdə özünəməxsus şəxsiyyətin mümkün xüsusiyyətlərinə olan maraq yarandıqda, özünüqiymətləndirməyə olan tələbatı və özünü məhz başqaları

ilə müqayisə etmə meyli yaranır. Mənlik şüurunun mümkün qaydada formalaşması yeniyetmələrin bütün psixoloji həyatına, həmçinin, müvafiq təlim fəaliyyətinin xarakterinə və ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmələrin mənlik şüurunun, şəxsiyyətin düzgün formalaşması onun özünüdərkin və özünüqiymətləndirmə ilə əlaqəlidir.

Pedaqoji-psixoloji ədəbiyyatda şəxsiyyətin məhz insanın inkişafı üzrə təkamül prosesinin mərhələlərini mümkün qaydada ifadə edən özünüdərkin 3 səviyyəsi müəyyən edilir:

1. Özünüdərk üzrə birinci səviyyədə olan insanlar eqosentrizm və həmçinin, "mənim" "mənim – olmayan" mümkün münasibətlər üzrə meyarlar sistemi çərçivəsində hər şeyə qarşı sırf istehlakçı xüsusiyyətlərlə xarakterizə edilir.
2. Özünüdərk üzrə ikinci səviyyədə məhz insanlar soyuqluq və eqosentrizmin əvəzinə məhz birlik, bərabərlik və cəmiyyətin müəyyən hissəsi üçün tamlığın dərk olunması ilə xarakterizə edilir.
3. Özünüdərk prosesinin üçüncü səviyyəsi isə fərqləndirmə qabiliyyətinin olmaması, məkan-zaman üzrə mövcud sonsuzluq, ətraf mühit və aləmlə qarşılıqlı münasibətlərin uyğun qaydada dərk olunması, onun birliyinin mümkün qaydada qəbul edilməsi, çox güclü şəxsiyyət olaraq bir fərdin digərləri ilə konkret münasibətlər prosesinin olmaması, ümumbəşəri mənəvi və zehni prinsiplərə əməl etməkdir [3, s.23].

Özünüqiymətləndirmə prosesində, mümkün hallarda, qiymətin psixoloji, əxlaqi, estetik, etik, emosional və digər bir sıra növlərindən istifadə edilir. Lakin təcrübələr göstərir ki, növlərin içərisində emosional qiymətlər çox mühüm yer tutur. Bütün hallarda özünüqiymətləndirmə zamanı emosional çalar hər zaman üstünlük təşkil edir. Özünüqiymətləndirmə səviyyəsi üzrə uyğun qiymətverən və yaxud da özünüqiymətləndirilən eyni bir insan olduğundan burada özünəhörmət və ləyaqət hissləri özünü biruzə verir. Bu səbəbdən də prosesdə sırf subyektiv amillərin də təsiri qaçılmaz olur.

Yeniyetmə həmin dövrdə təlimin fəaliyyətinin bütün növlərin anlamağa, dərs vaxtı müstəqil iş formalarını gerçəkləşdirməyə hazır və eyni zamanda qadir olur, məktəbdənkənar dövrlərdə öz idrak fəaliyyətin tənzim etmək imkanına yiyələnir. Bu zaman müəllim də çətinliklərlə qarşılaşır, bütün qeyd edilən cəhətlər davamsız xarakteri daşıyır, hələ formalaşma, həmçinin əmələ gəlmə mərhələsində olur. Bu da həm kiçik yeniyetmə, həm də böyük yeniyetmə yaşlarında təlimin və tərbiyənin ayrı-ayrı üsullarını və tərzlərini gerçəkləşdirməyi tələb edir [2, s.20].

Müəllimin qiymətlənildirməsi və yaxud da təlimdə əldə edilmiş uğurlu nəticələrin mümkün təsiri altında özünüqiymətləndirmə formalaşmağa başlayır. Özünüqiymətləndirmə ilə əlaqədar olaraq öz gücünə olan inam da formalaşır. Təcrübələr göstərir ki, təlimdə olan çətinliklərdən, həmçinin, müəllimin və valideynlərin mümkün tənqidi qeydləri zamanı məktəblilərdə frustrasiya vəziyyəti, öz gücünə olan inamsızlıq, tədris və təlimə marağın itməsi, "məktəb nevrozlarının"

əmələ gəlməsi halları da sıx müşahidə edilir. Müəllimin bu mümkün cəhətləri də qeydə alması və nəzərdə saxlaması məktəblilərdə sırf şəxsiyyətin müvafiq və uyğun əlamətlərinin formalaşması prosesi zamanı mühüm əhəmiyyət kəsb edən amillərdəndir.

Yeniyetmənin müstəqilliyi və yaşıdları ilə ünsiyyət üçün güclü, bəzən şişirdilmiş ehtiyacları olur. Yeniyetmələrin müstəqilliyi, əsasən, böyüklərdən azad olmaq, qəyyumluq və nəzarətdən azad olmaq istəklərində, habelə müxtəlif hobbilərdə - qeyri-təhsil fəaliyyətində ifadə olunur. Çox vaxt bir-birini əvəz edən güclü hobbilər yeniyetməlik üçün xarakterikdir. Zövqünə görə peşə seçərək, yeniyetmə həm müstəqillik, həm də idrak ehtiyacı hisslərini təmin edir.

Yetkinlik hissi yeniyetməliyin mərkəzi neoplazmasına çevrilir. Yeniyetmə daxili dünyasını kəşf edir. Şəxsi düşüncə, özünü dərk etmə ehtiyacı bir yaşıdı ilə ünsiyyətdə etiraf və bu dövrdə tutulmağa başlayan gündəliklər, şeir və fantaziyalara səbəb olur. Yeniyetmələr digər insanların onları daim müşahidə etdiyini və qiymətləndirdiyini düşünürlər. Bu fenomen Qərb psixologiyasında "xəyali auditoriya" adlanır. Xəyali auditoriyaya sahib olan gənc özünü başqalarının, bəzən hətta küçədə tamamilə tanımadığı yoldan keçənlərin diqqət mərkəzində hiss edir. Həmişə başqalarının fikirlərinə açıq olduğu vəziyyət onun həssaslığının daha da artmasına səbəb olur [4, s.19-21].

Özünüdərketmənin inkişafı da yeniyetməlikdə ortaya çıxan təklik meyli, tənhalıq hissi, anlaşılmazlıq və həzinlik ilə əlaqələndirilir. Yeniyetmənin ən vacib xüsusiyyətlərindən biri davranışda rəhbər tutulmağa başladığı mənəvi fikirlər, anlayışlar, inanclar, dəyər mühakimələri sistemi və s. olan əxlaqi şüurun inkişafıdır. Yeniyetmənin qazandığı əxlaqi təcrübə və göstərdiyi əxlaqi fəaliyyət onun şəxsiyyətinin formalaşmasına xidmət edir.

Yeniyetmənin zehnində yaratdığı "Mən" obrazları müxtəlif olur və onun həyatının bütün zənginliyini əks etdirir. Fiziki "mən", yəni insanın öz xarici görünüşü, cəlbediciliyi, ağlı, müxtəlif sahələrdəki qabiliyyətləri, xarakterin gücü, ünsiyyətcilliyi, xeyirxahlığı və digər keyfiyyətləri barədə fikirlər, birləşdikdə böyük "mən-konsepsiya" təbəqəsini meydana gətirir. Özünüqiymətləndirmə və davranış da onunla əlaqələndirilir. Yeniyetmə üçün onun yalnız kim olduğunu deyil, həm də fərdi xüsusiyyətlərinin nə qədər əhəmiyyətli olduğunu da bilmək daha vacib məsələdir. Onların keyfiyyətlərinin qiymətləndirilməsi, əsasən ailənin və yaşıdlarının təsiri nəticəsində inkişaf etmiş dəyərlər sistemindən asılıdır. Bundan əlavə, müəyyən davranış tərzi özünü göstərən şəkillərə uyğun olmalıdır. Məsələn, özünü cazibədar hesab edən yeniyetmə, özünü çirkin, lakin çox ağıllı hesab edən yaşıdından çox fərqli davranır. E.Eriksonun nəzəriyyəsində problem yeniyetmələrin davranışının müxtəlif aspektləri onun peşə seçimi problemi, həmyaşıd qrupuna üzv olmaq, alkoqol və narkotik istifadəsi - şəxsiyyət böhranının qismən əks olunması kimi də izah edilir [5, s.67-70].

Psixoloji tədqiqatlara görə, məktəblilərin mənlik şüuru müstəqillikdən uzaq olur. Başqalarının qiymətləndirmələri, ilk növbədə müəllimin qiymətləndirmələri üstünlük təşkil edir. Bir qayda olaraq, yaxşı şagirdlərdə yüksək, çox vaxt qiymətləndirilən özünə hörmət, zəif şagirdlərdə isə aşağı, əksər hallarda qiymətləndirilməyən inkişaf olur. Zəif şagirdlərdə tədricən özünə inamsızlıq, narahatlıq, utancaqlıq inkişaf etməyə başlayır, özünü sinif yoldaşları arasında pis hiss edir və böyüklərdən ehtiyatlı davranırlar. Beləliklə, yeniyetmə həyat təcrübəsi qazandıqca, yalnız onun qarşısında açılmanın yeni cəhətləri deyil, həyatın az və ya çox dərəcədə yenidən düşünülməsi baş verir. O, həyatda həll etdiyi tapşırıqların daxili mənasını müəyyənləşdirərək daxili varlığının ən yaxın və təməl məzmununu dərk edir.

Məqalənin aktuallığı yeniyetməlik dövründə inkişafı psixoloji xüsusiyyətlərinin pedaqoji-psixoloji cəhətdən araşdırılması səmərəliliyinin təhlilini verməkdən ibarətdir.

Məqalənin elmi yeniliyi yeniyetməlik dövründə inkişafı psixoloji xüsusiyyətləri probleminin bir məqsəd kimi qarşıya qoyulması amilinə əhəmiyyətli diqqət yetirilməsindən ibarətdir.

Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin psixoloqları, pedaqoqları, valideynlər, tələbə və magistrləri istifadə edə bilər.

ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. Pedaqoji psixologiya. I-II kitab. B: [ADPU], 2010. 381s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B.: Pedaqogika, 2004. 368 s.
3. Əzimli Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: 2006. 191 s.
4. Vəliyev M.V. İnkişaf və yaş psixologiyası. Dərs vəsaiti. B: Elm, 2013. 280 s.
5. Эриксон Э. Идентичность: юность и кризис. М.: Флинта, 2006. 344 с.
6. Леонтьев А.Н. Психологические основы развития ребенка и обучения. М.: Смысл, 2019. 423 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2024
Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2024
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.